# El ağsaqqalı



**Yerlərdə işini ürəkdən sevən, ona məsuliyyət və yaradıcılıqla yanaşan adamlarla görüşəndə əhvalım yüksəlir, sanki doğmalarımla qarşılaşıram. Belələrindən biri də Tovuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin inspektoru İbrahim Əsgər oğlu Aslanovdur.**

İstərdim ki, müsahibimlə siz də tanış olasınız. İbrahim müəllimin özünü dinləməzdən əvvəl onun gözəl ailə sahibi, nüfuzlu el ağsaqqalı olduğunu, uzun illər bu gözəl torpağın qeyrətli oğlu, gözəl şair, tanınmış mədəniyyət xadimi Bəşir Həsənovla birgə çalışdığını da nəzərinizə çatdırmağı özümə borc bildim...

- Mən Tovuz rayonunun Dondarquşçu kəndində kolxozçu ailəsində anadan olmuşam. Elə həmin kənddə 7-ci sinfi, 1955-ci ildə isə Tovuz şəhər orta məktəbini bitirmişəm.

Atam Qasımov Əsgər Aslan oğlu 1941-ci ildə Böyük Vətən Müharibəsinə getmiş və müharibədən qayıtmamışdır.

Anam Qasımova Tamam Məmməd qızının himayəsində böyümüşəm. O, qabaqcıl kolxozçu idi. Sözündən-söhbətindən doymaq olmazdı, həmişə bizə ağıllı məsləhətlər verərdi. Deyərdi ki, hökumətin işinə ürəklə qulluq etmək, məsuliyyətlə yanaşmaq lazımdır. Mən sizdən küssəm barışacam, qanun isə onu pozan adamla barışmır...



N.K.Krupskaya adına Bakı kitabxanaçılıq texnikumunu 1960-cı ildə bitirdikdən sonra bir il tarlaçılıq üzrə mədəni çadırda işləmişəm.

1962-1965-ci illərdə hərbi xidmətdə olmuşam.

1966-cı il iyul ayının 1-dən Rayon Mədəniyyət Şöbəsinin inspektoru vəzifəsində çalışıram. O zaman Tovuzda 23 klub müəssisəsi və 30 kitabxana var idi.

İşlədiyim dövr ərzində klub müəssisələrinin sayı 52-yə, kitabxanaların sayı 77-yə çatdırılmış, xalq teatrı yaradılmış, 3 muzey və rəsm qalereyası yaradılmışdır.

3 uşaq musiqi məktəbi açılmışdır. Burada 150 nəfərə yaxın müəllim çalışır.

Mən işlədiyim dövrdə istedadlı musiqiçilər yetişdirilmiş, bədii özfəaliyyət kollektivləri yaradılmışdır. Onlar respublika baxış-müsabiqələrində qalib olmuş, pul mükafatına və laureat adına layiq görülmüşlər.

Mədəniyyət sahəsində əldə olunmuş nailiyyətlərlə əlaqədar medal və fəxri fərmanlarla mükafatlandırılmışam.

Evliyəm. Ailəmiz ziyalı ailəsidir. 2 oğlum, 3 qızım və 9 nəvəm var.

Həyat yoldaşım Alagöz ingilis dili müəlliməsidir.

Məsəl var deyərlər: "Xoşbəxt o kəsdir ki, səhər işə, axşam evə tələsir". Mənim üçün ailəm nə qədər əzizdirsə, çalışdığım kollektiv də bir o qədər doğmadır. Zarafat deyil, ömrümün 43 ilini burada "xərcləmişəm"...

Tovuz

**A.QULİYEV**